Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ VALYUTA EHTİYATLARININ İDARƏ EDİLMƏSİ DEPARTAMENTİ HAQQINDA

# Ə S A S N A M Ə

**Bakı-2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Valyuta ehtiyatlarının idarə edilməsi departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyalarının yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi Mərkəzi Bankının valyuta ehtiyatlarının idarə edilməsinin strategiyası və qaydaları çərçivəsində Mərkəzi Bankın valyuta aktivlərinin təhlükəsiz və likvid saxlanılması, eləcə də səmərəli idarəetmə vasitəsilə artırılmasıdır.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsinin illik əməliyyat investisiya proqramının hazırlanması;

3.2. Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsinin strategiyası və qaydaları və valyuta ehtiyatlarının illik əməliyyat investisiya proqramı çərçivəsində Mərkəzi Bankın valyuta ehtiyatlarının investisiya edilməsi;

3.3. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.4. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.5. Departamentin fəaliyyət istiqamətlərinə aid hüquqi sənədlərin hazırlanması;

3.6. Departamentin fəaliyyət istiqamətləri üzrə Mərkəzi Bankın rəhbərliyi və struktur bölmələri üçün arayışlar və məlumatlar hazırlayır;

3.7. aparılan əməliyyatlar üzrə məxfilik rejiminə riayət olunmasının təmin edilməsi;

3.8. rəhbərliyin tapşırığı ilə departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departament strukturu aşağıdakı şöbələrdən və bölmədən ibarətdir:

4.1.1. Valyuta ehtiyatlarının investisiyası şöbəsi;

4.1.2. İnvestisiyaların təhlili və xarici menecerlərlə iş şöbəsi.

4.1.3. İnvestisiya uçotu və hesabatlılıq bölməsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Valyuta ehtiyatlarının investisiyası şöbəsi:**

5.1.1. Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsi çərçivəsinə uyğun olaraq investisiya portfelini (altportfelini) formalaşdırır və idarə edir;

5.1.2. xarici maliyyə bazarlarında investisiya fəaliyyəti çərçivəsində əməliyyatları həyata keçirir və əqdləri icra üçün Mərkəzi Bankın portfel idarəetmə sisteminə daxil edir;

5.1.3. Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsi çərçivəsində müəyyənləşdirilən valyuta strukturuna nail olunması və konvertasiya əməliyyatlarının aparılması məqsədilə xarici maliyyə bazarlarında xarici valyutanın alqı-satqısını həyata keçirir və əqdləri icra üçün Mərkəzi Bankın portfel idarəetmə sisteminə daxil edir;

5.1.4. Mərkəzi Bankın xarici müxbir hesabları arasında köçürmə əməliyyatlarını həyata keçirir və əqdləri icra üçün Mərkəzi Bankın portfel idarəetmə sisteminə daxil edir;

5.1.5. Nağd pul departamentinin sifarişi əsasında xarici banklarla nağd xarici valyutanın (banknotların) alqı-satqısını həyata keçirir və əqdləri icra üçün Mərkəzi Bankın portfel idarəetmə sisteminə daxil edir;

5.1.6. xarici banklarda Mərkəzi Bankın adına müxbir və qiymətli metal hesablarının açılmasını həyata keçirir və onlarla bağlanılacaq sazişləri iqtisadi cəhətdən təhlil edir;

5.1.7. valyuta ehtiyatlarının investisiya edilməsinə dair xarici bank və xarici investisiya şirkətləri ilə bağlanılacaq sazişləri iqtisadi cəhətdən təhlil edir;

5.1.8. yeni kontragent və emitentlərə dair arayış və təkliflər hazırlayır;

5.1.9. xarici maliyyə bazarlarının vəziyyətinə dair hesabat və təqdimatlar hazırlayır;

5.1.10. xarici kontragentlər tərəfindən şöbəyə daxil olan sorğu və məktubların cavablandırılmasını həyata keçirir;

5.1.11. rəhbərliyin tapşırığı ilə Şöbənin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. İnvestisiyaların təhlili və xarici menecerlərlə iş şöbəsi:**

5.2.1. Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsi strategiyası və qaydalarında dair təkliflər hazırlayır və İnvestisiya Komitəsi və ya Mərkəzi Bankın İdarə Heyətinə təqdim edir;

5.2.2. Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsinin illik əməliyyat investisiya proqramının layihəsini hazırlayır və İnvestisiya Komitəsi və ya Mərkəzi Bankın İdarə Heyətinə təqdim edir;

5.2.3. valyuta ehtiyatlarının strateji və taktiki bölgüsünə dair təkliflər hazırlayır;

5.2.4. yeni maliyyə alətlərinə dair arayış və təkliflər hazırlayır;

5.2.5. valyuta ehtiyatlarının idarə edilməsinin mütləq və nisbi gəlirliliyinə dair hesabat hazırlayır;

5.2.6. Mərkəzi Bankın portfel idarəetmə sistemində yeni emitentlər və yeni investisiya alətləri yaradır və zərurət yarandıqda onları yeniləyir;

5.2.7. valyuta ehtiyatlarının idarə edilməsinə xarici menecer, kastodian və məsləhətçilərin cəlb olunmasına dair təkliflər hazırlayır və onlarla bağlanılacaq sazişləri iqtisadi cəhətdən təhlil edir;

5.2.8. xarici menecerlərlə əlaqələri koordinasiya edir və onlarla bağlanılmış sazişlərdə müəyyənləşdirilmiş öhdəliklərin icrasına nəzarət edir;

5.2.9. xarici menecer və kastodiandan xarici idarəetmə çərçivəsində əldə edilən hesabatları təhlil edir və onları arxivləşdirir;

5.2.10. xarici menecer, müxbir hesab, kastodian və xarici kontragentlərdən daxil olan çirkli pulların yuyulması və müştərinin tanınması kimi sorğuları əlaqədar departamentlərlə birgə cavablandırır və aidiyyəti üzrə təqdim edir;

5.2.11. valyuta ehtiyatlarının idarə edilməsinə dair Mərkəzi Bankın İdarə Heyəti və ya daxili komitələr üçün təqdimatlar hazırlayır;

5.2.12. rəhbərliyin tapşırığı ilə Şöbənin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. İnvestisiya uçotu və hesabatlıq bölməsi:**

5.3.1. xarici maliyyə bazarlarında bağlanılmış əqdlər üzrə müxabirləşmələri Mərkəzi Bankın portfel idarəetmə sistemi vasitəsilə həyata keçirir;

5.3.2. Maliyyə idarəetməsi departamenti tərəfindən təqdim olunan maliyyə alətləri üzrə uçot sxemlərini Mərkəzi Bankın portfel idarəetmə sistemində tətbiq edir;

5.3.3. yeni uçot sxemləri üzrə mühasibat yazılışlarının aparılması üçün Mərkəzi Bankın portfel idarəetmə sistemində balans, gəlir və xərc hesablarını açır;

5.3.4. xarici valyutada olan maliyyə aktivlərinin gündəlik əsasda yenidən qiymətləndirməsini Mərkəzi Bankın portfel idarəetmə sistemi vasitəsilə həyata keçirir;

5.3.5. gündəlik avtomatik uçot prosesi xaricində qalan əqdlər üzrə müxabirləşmələri Mərkəzi Bankın portfel idarəetmə sistemində həyata keçirir;

5.3.6. Mərkəzi Bankın portfel idarəetmə sisteminin mühasibatlığı/uçotu sferası ilə bağlı dəstəkləyici şirkətə müraciət edir və onların həllində iştirak edir;

5.3.7. investisiya mühasibatlığı ilə bağlı hesabatların əldə edilməsi və zərurət yarandıqda araşdırmaların aparılması məqsədilə kastodian və xarici menecerlərlə əməkdaşlıq edir;

5.3.8. kastodian, müxbir hesab və xarici menecerlərdən daxil olan vergi ilə bağlı formaları doldurur və qarşı tərəfə təqdim edir;

5.3.9. valyuta ehtiyatlarının idarə edilməsi ilə bağlı Departamentə daxil olan invoysları yoxlayır, onları ödənilməsi üçün əlaqədar departamentə təqdim edir və arxivləşdirir;

5.3.10. valyuta ehtiyatlarının idarə edilməsi ilə bağlı daxili sistemlər/mühasibat hesabları arasında tutuşdurma (rekonsiliasiya) aparır və yaranmış fərqlərin aradan qaldırılması istiqamətində işlər aparır;

5.3.11. xarici menecerlərin mühasibatlıq yazılışlarını kastodiandan əldə olunan hesabatlar əsasında portfel idarəetmə sisteminə daxil edir və baş mühasibatlıq sisteminə ötürülməsini təmin edir;

5.3.12. valyuta ehtiyatlarının həcmi, strukturu və idarəetmədən əldə olunan gəlirlər barədə hesabat hazırlayır;

5.3.13. valyuta ehtiyatlarının dəyişmə mənbələrinə dair gündəlik hesabat hazırlayır;

5.3.14. rəhbərliyin tapşırığı ilə Bölmənin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏALAR

6.1. Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

6.2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Bankın İdarə Heyətinin 01 sentyabr 2020-ci il tarixli qərarı (protokol №40) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının Valyuta ehtiyatlarının idarə edilməsi departamenti haqqında Əsasnamə" ləğv edilir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**